# Pambıqçılıq kəndin sosial simasını dəyişəcək

**Bu gün Azərbaycan kəndlisi uzun illər bütün sirlərinə dərindən yiyələndiyi, lakin sonradan az qala unudulmaqda olan dədə- baba peşəsinə - "ağ qızıl" istehsalına başlamışdır. Pambıq elin sərvəti, süfrələrimizin ruzusu, xeyir-bərəkətidir. Mən bir fermer kimi bu qiymətli bitkinin, bir vaxtlar haqlı olaraq strateji məhsul adlandırdığımız pambıqçılığa yenidən meydan veriləcəyinə qəlbən inanmışam. Dövlət başçımız cənab İlham Əliyevin apardığı düzgün iqtisadi siyasətin nəticəsi olaraq "ağ qızıl" bizim əsas məşğulluq sahəmizə çevrilməkdədir. Pambıqçılıq- respublika əhalisinin ən çox cəmləşdiyi kənd rayonlarında yeni iş yerlərinin açılmasına, insanların torpağa daha yaxından bağlanmasına geniş imkanlar yaradacaqdır. Pambıqçılıq kəndin sosial simasını dəyişəcəkdir.**

Bu il sentyabr ayının 17-də Sabirabad rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar keçirilən müşavirədə qoyulan məsələlər, irəli sürülən fikirlər biz fermerlərdə böyük ruh yüksəkliyi yaratdı. Müşavirədə cənab Prezident 70-80-ci illərdə bu sahədə qazanılmış uğurlu nailiyyətlərdən söz açdı. Bu sahənin yenidən inkişafı üçün dövlət başçısı pambıqçılar qarşısında çox mühüm və aydın bir vəzifə qoyaraq dedi: "Sabirabad rayonunda və bütün başqa pambıq əkilən rayonlarımızda pambıqçılığın bərpası işi sürətlə gedəcək, biz pambıqçılığın şöhrətini bərpa edəcəyik. Bu həm insanlar, həm də dövlət üçün böyük gəlir gətirən sahədir".

Respublika müşavirəsində qarşıya qoyulan vəzifələrin və tapşırıqların yerinə yetirilməsi üçün Saatlı Rayon İcra Hakimiyyətində fermerlərə kömək məqsədi ilə rayon müşavirəsi keçirildi. Rayon icra hakimiyyətinin başçısı Siraqəddin Cabbarov aidiyyəti təşkilatlara torpaqların əkinə hazırlanması üçün fermerlərə texnikanın verilməsi, onların toxumluq çiyid, səpin aqreqatları, suvarma qurğuları, mineral gübrələr, herbisidlər, yığım kombaynları və sairlə təmin olunmaları barədə tapşırıqlar verdi. Bu sahədə yaranan hər hansı problemin operativ həlli məqsədi ilə qaynar xətt müəyyən edildi, müraciət edənlərin növbədənkənar qəbuluna açıq qapı şəraiti yaradıldı.



Bütün bunlar pambıqçılığı inkişaf etdirmək üçün yeni stimul verir və respublikanın bütün əməkçiləri kimi, Saatlı rayon zəhmətkeşlərini də ürəkdən sevindirir. Gələn il rayonumuzda 17 min hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Hazırda bununla əlaqədar rayonun iqtisadi potensialı təhlil edilir, əlavə imkanlar müəyyənləşdirilir. Başçılıq etdiyim "Elçin-Ş" toxumçuluq fermer təsərrüfatı aqrar sahədə çox mühüm bir işin öhdəsindən ləyaqətlə gəlir. Taxıl, yonca və başqa bitkilərin becərilməsində yüksək məhsuldarlıq verə bilən toxum sortlarının yaranması sahəsində təcrübə qazanmışıq ki, məhsulumuz lisenziyaya layiq görülüb. Təsərrüfatımızda 20 nəfər əməkçi çalışır. Onlar əkinçilik peşəsinə dərindən yiyələnmiş, torpağın aqrotexniki qaydada becərilməsi sahəsində təcrübə qazanmışlar. Təsərrüfat üzvlərinin təklifi ilə pambıqçılıq sahəsini inkişaf etdirməyə start vermişik. Gələn il üçün təsərrüfatımızın əkin sahəsindən 25 hektarında yüksək aqrotexniki qaydada, sənaye texnologiyası əsasında pambıq əkib becərilməsi üçün indidən mövsümi işlərə başlamışıq. Heç şübhəsiz ki, qarşıya qoyulan vəzifənin, nəzərdə tutduğumuz işlərin öhdəsindən layiqincə gələcəyik.

**Əlabbas ŞƏMMƏDOV,**
**Saatlı rayonu**
**"Elçin-Ş" toxumçuluq**
**fermer təsərrüfatının rəhbəri.**